# XX ƏSR AZƏRBAYCAN ELMİ: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

## The Science of Azerbaijan in XX$^{th}$ Century: Realities and Perspectives

**Mahmud KƏRIMOV***

***Abstract:*** *In the article it is said about the real position, the existing structure of Azerbaijan science, especially the main centre of the Azerbaijan science Azerbaijan National Academy of Sciences. At the same time it is said about the strategical directions of Azerbaijan science and the problems done by Azerbaijan state in this sphere.*
***Keywords:*** *Azerbaijan, science, direction, independent, reality.*

Müstəqilliyinin ikinci onilliyini tamamlamaq ərəfəsində olan müasir Azərbaycan cəmiyyət və dövlət olaraq öz sosial-iqtisadi və mədəni-mənəvi inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur. Doxsanıncı illərin ortalarından bu günədək aparılan sistemli və davamlı dövlət quruculuğu siyasəti konkret bəhrəsini verir, ölkəmiz növbəti yüksəliş mərhələsinə keçid dövrünü yaşayır.

Müasir dünyanın aparıcı dövlətlərinin keçdiyi təkamül yolu, onların təcrübəsi, həmçinin dünyanın içində olduğu qlobal problemlərin mahiyyəti təsdiq edir ki, sosial proseslərdə intellektual potensialın yaxından iştirakı, elmi qurumların yeri və rolu prinsipial məsələdir.

Bu gün yalnız Azərbaycan elmi sferası üçün deyil, respublikanın ictimai-siyasi gerkəçliyi müstəvisində böyük əhəmiyyət daşıyan müasir Azərbaycan elminin vəziyyəti, bu sahədə konseptual strateji proqramların hazırlanmasında və həyata keçirilməsində elmi-tədqiqat müəssisələri və alimlərin rolunun metodoloji və kommunikativ aspektlərindən, elmi fəaliyyət sahəsində mövcud problemlər, onların aradan qaldırılması tədbirləri, elm sahəsində islahatlarda bu aspektdə qarşıda duran vəzifələrdən də bir neçə kəlmə bəhs etmək istərdik.

---

* Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti akademik

Elmi fəaliyyət sahəsində müasir dövrün tələblərindən irəli gələn reformaların həyata keçirilməsi müxtəlif istiqamətləri özündə birləşdirən kompleks tədbirlər planıdır. Burada struktur dəyişikliyindən tutmuş normativ-hüquqi bazanın yaradılmasınadək müxtəlif tədbirlər nəzərdə tutulur. Elm sahəsindəki ciddi dəyişikliklər elmin idarəedilməsi, yaradıcılığın stimullaşdırılması və alimlərin sosial ehtiyaclarının tam ödənilməsi kimi kompleks xarakterli məsələlərin həllinə bağlıdır.

Lakin bütün bu tədbirlər də daxil olmaqla reformanı reforma xətrinə aparmaq olmaz. Reformada başlıca məqsəd fundamental elmlər sahəsində elmi tədqiqatları gücləndirmək və elmi inkişaf etdirmək, ölkənin sosial-iqtisadi və mədəni-mənəvi inkişafında elmin yaxından iştirakına nail olmaq olmalıdır. Dövlət elmi fəaliyyət sahəsinin özünəməxsus sfesfikasını nəzərə alaraq, burada kənardan adminstrativ müdaxilə yolu ilə islahatlar aparılması metodunu məqbul heab etmir, bu prosesin elmi fəaliyyət sahəinin öz daxilində təbii yetişməsinə, təşəbbüsün daxili məntiqdən doğmasına üstünlük verir. Elmdə islahatlardan danışarkən diletant səviyyəində Akademiya haqqında da müəyyən mülahizələr sələndirilir. Azərbaycan elmi fikrinin inkişafında son dərəcə mühüm rol oynamış Akademiyanın mobilləşdirilməsindən söhbət gedə bilər və bu proses müəyyən struktur dəyişikliyini, mövcud kontingentin müəyyən qədər ixtisarını itisna etmir. Lakin bütövlükdə Akademiyaya münasibətdə isə əsas prinsipi ən dürüst olaraq ümummilli lider Heydər Əliyev müəyyənləşdirmişdir:

***«Akademiya – milli sərvətimizdir»!***

Azərbaycanda elmi fikrin inkişaf dinamikası və müasir durumu onun bütövlükdə mədəniyyətinin kulturoloji xüsusiyyətləri ilə şərtlənir. XX əsrin birinci yarısında Şimali Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı nəticəsində milli elmi fikir öz inkişafının növbəti mərhələsini sovet elmi düşüncəsi kontekstində davam etdirmişdir. Həmin dövrdə Azərbaycanda da elm və təhsil sürətlə inkişaf etmişdir. Bütün bu proseslərin məntiqi nəticəsi olaraq 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası təsis edilmiş, bununla da elmi fəaliyyət Azərbaycan elmi fikrinin inkişafı tarixində ilk dəfə olaraq mükəmməl təşkilati struktura malik olmuş, sistemli xarakter almışdır.

XX əsrin ikinci yarısında Azərbaycan Elmlər Akademiyası zəngin elmi ənənələri olan Azərbaycan xalqının intellektual potensialının səmərəli təşkilində, fundamental və tətbiqi elm sahələrinin inkişafında müstəsna rol oynamışdır.

Sovet dövründə, xüsusən də 50-80-ci illərdə yuxarıda göstərilən istiqamətlərdə xeyli nailiyyətlərin əldə edilməsinə baxmayaraq, 90-cı illərin

əvvəllərində ümumən ictimai həyatdakı böhran elmdə də ciddi böhranın yaranmasına səbəb olmuş, respublikadan xaricə beyin axını güclənmiş, mövcud elmi-təşkilati strukturlar iflic vəziyyətinə düşmüşdü.

Mövcud problemlərə baxmayaraq ümummilli lider Heydər Əliyevin növbəti dəfə hakimiyyətə gəlişi ilə bütün digər sahələr kimi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycanın elmi potensialı da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 yanvar tarixli Fərmanı ilə Azərbaycan Milli Elmlər Akademiyasına Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, Azərbaycandakı bütün elmi müəssisələrin və ali məktəblərin elmi-tədqiqat fəaliyyətini əlaqələndirən və istiqamətləndirən, Azərbaycan Respublikasını xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil edən ali dövlət elmi təşkilat statusunun verilməsi ilə Akademiyanın fəaliyyət dairəsi xeyli genişləndirilmiş, səlahiyyətləri artırılmış, Azərbaycanda elmi-texniki potensialı qorumaq və inkişaf etdirmək, iqtisadiyyatı gücləndirmək, mədəniyyəti zənginləşdirmək, xalqın milli mənafeyini qorumaq baxımından onun qarşısına mühüm vəzifələr qoyulmuşdur.

Akademiya haqqında müxtəlif söz-söhbətlərin gəzdiyi, onun fiziki mövcudluğunun belə təhlükə altına atıldığı bir dövrdə Ümummilli liderin bu müqəddə elm ocağı haqqındakı birmənalı qiyməti yalnız AMEA-nın deyil, onun timalında bütövlükdə Azərbaycan elmi potensialının xilası missiyasını yerinə yetirdi: «Elmlər Akademiyası Azərbaycan elmini inkişaf etdirib, xalqımızın elm, bilik səviyyəini yüksəklərə qaldırıbdır. Azərbaycan elmini dünyaya tanıtdırıb və dünya elminə, bəşər elminə öz böyük töhfələrini veribdir… Azərbaycan Milli Elmlər Akademiyası xalqımızın milli sərvətidir! »

Hazırda Azərbaycan Respublikasında elmi araşdırmalar Akademiya da daxil olmaqla əsasən aşağıdakı tədqiqat müəssisələrində aparılır:

– Azərbaycan Milli Elmlər Akademiyasının elmi-tədqiqat müəssisələri;

– nazirlik, dövlət komitələri, səhmdar cəmiyyətlər və şirkətlərin nəzdindəki sahə elmi-tədqiqat müəssisələri;

– ali təhsil müəssisələrindəki elmi kafedra və laboratoriyalar;

– özəl elmi sektor.

AMEA ona verilmiş səlahiyyətlər çərçivəsində respublika üzrə elmi fəaliyyətin vahid qaydada koordinasiyası üçün Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının fəaliyyət çərçivəsində bu funksiyanı yerinə yetirir. Şuranın işi də özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ölkənin elmi-texniki potensialının saxlanılması və inkişaf etdirilməsi ilk növbədə bilavasitə iki amildən asılıdır:

1. elmi fəaliyyət sahəsində dövlət siyasəti;
2. elmi fəaliyyətə dövlətin maliyyə dəstəyi;

Bütün bu problemlərin aradan qaldırılması üçün Azərbaycan dövlətində strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsi olaraq elm Qərb standartlarına uyğun islahatlar mərhələsindədir. Dövlət tərəfindən bu istiqamətdə kompleks tədbirlər həyata keçirilir. Bu xüsusda Azərbaycan Respublikası Prezidentinin 04 may 2009-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş «2009-2015-ci illərdə Azərbaycan elminin Milli inkişaf Strategiyası və həmin Strategiyanın həyata keçirilməsi sahəsində Dövlət Poqramı» təsdiq edilmişdir.

Strategiya, Respublika Prezidentinin müvafiq sərəncamında da qeyd edildiyi kimi, Azərbaycan Respublikasında elmi qurumların strukturunun müəyyənləşdirilməsi, tədqiqatların müasir standartlar səviyyəsində aparılması və maliyyələşdirilməsi, ölkənin elmi kadr potensialının artırılması və onun sosial müdafiəsinin gücləndirilməsi, Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyası, bütövlükdə elmin inkişaf etdirilməsi məqsədilə hazırlanmışdır.

Strategiyada islahatların aşağıdakı istiqamətlərdə aparılması nəzərdə tutulur:

– Azərbaycan Respublikasında fundamental tədqiqatların prioritetlərini ölkənin mühüm sosial-iqtisadi və ictimai-mədəni məsələlərinin həllinə uyğun müəyyənləşdirmək;

– fundamental elmlər üzrə tədqiqatları genişləndirmək;

– elm və texnika sahəsində idarəetmə sistemini təkmilləşdirmək;

– elmi-tədqiqat müəssisələrinin və bütövlükdə elmin maliyyələşdirilmə mexanizmlərini təkmilləşdirmək;

– elmi-texniki infrastrukturu modernləşdirmək;

– elmin normativ-hüquqi bazasını yaratmaq;

– yüksəkixtisaslı elmi kadrlar hazırlamaq;

– elmi məktəblərin qorunmasına və varisliyin təmin edilməsinə nail olmaq;

– elmin, təhsilin və istehsalın inteqrasiyasını təmin etmək;

– elmi işçilərin sosial vəziyyətini əsaslı şəkildə yaxşılaşdırmaq;

– elmin informasiya təminatını gücləndirmək;

– beynəlxalq elmi əlaqələri gücləndirmək;

– Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasını gücləndirmək;

– elmi tədqiqatların və innovasiya siyasətinin səmərəsini artırmaq;

– ölkəni texnoloji cəhətdən modernləşdirmək;

– elmi potensialın ölkənin milli təhlükəsizliyində fəal iştirakına nail olmaq;

– elmin inkişafı əsasında milli-mənəvi dəyərləri qorumaq;

– xalqımıza məxsus milli-mənəvi dəyərlərlə bağlı istiqamətlərdə bir çox məsələləri yenidən azərbaycançılıq məfkurəsi mövqeyindən araşdırmaq;

– elmi potensialı ölkənin sosial-iqtisadi və mədəni-mənəvi inkişafına yönəltməkdir.

Strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramında isə 2009-2015-ci illər ərzində Milli strategiyada nəzərdə tutulan işlərin həyata keçirilməsi üçün konkret tədbirlər, onların icra mexanizmləri və icraya məsul təşkilatlar müəyyənləşdirilmişdir. Dövlət Proqramında Azərbaycan Milli Elmlər Akademiyası ilə nazirlik, dövlət komitələri, səhmdar cəmiyyətlər və şirkətlərin, ümumiyyətlə icra strukturlarının birgə fəaliyyəti nəzərdə tutulur.

AMEA-da Strategiyanın həyata keçirilməsi istiqamətində mühüm işlər həyata keçirilir. Müvafiq dövlət qurumları nümayəndələrinin iştirakı ilə yaradılan işçi qrupu icra proqramına uyğun olaraq fəaliyyət göstərir.

Strategiya Azərbaycanın ictimai və humanitar elmləri qarşısında da xeyli sayda yeni vəzifələr qoyur. Milli Strategiyanın «Azərbaycanda elmin inkişafı» başlıqlı 2-ci bəndində Azərbaycanda humanitar və ictimai elmlərin zəngin ənənələrinin olduğu xüsusi qeyd olunaraq bu sahədəki indiyədək əldə olunmuş nailiyyətlər aşağıdakı kimi ümumiləşdirilmişdir:

- xalqımızın etnogenezinin, arxeologiyasının, etnoqrafiyasının, siyasi, sosial-iqtisadi tarixinin və tarixşünaslığının tədqiqi; azərbaycanlı filosof və mütəfəkkirlərin orta əsrlərdə ərəb, türk və fars dillərində çap olunmuş əlyazmalarının, zəngin irsinin tədqiqi; Azərbaycan xalqının fəlsəfi və ictimai-siyasi fikrinin və onun əsas inkişaf mərhələlərinin tədqiqi; ictimai-ədəbi fikir tarixinin, ədəbiyyatşünaslığın əsas məsələlərinin, ədəbiyyat tarixinin tədqiqi; zəngin Azərbaycan folklorunun toplanılması, kataloqlaşdırılması, təsnifatı, nəşri və tədqiqi; Şərq xalqlarının tarixi, ədəbiyyatı, filologiyası, dilləri, ictimai fikri və din tarixinin tədqiqi, yazılı abidələrin tərcüməsi və nəşri, Şərq ölkələrində cərəyan edən ictimai-siyasi və etnik-mədəni proseslərin araşdırılması; tarixi milli-memarlıq məktəblərinin öyrənilməsi, müasir memarlıq məktəblərinin yaradılması, memarlıq abidələrinin bərpası sahəsində tədqiqatların və sənətşünaslıq elminin inkişafı; ənənəvi milli musiqi mədəniyyətinin öyrənilməsi, müasir peşəkar musiqişünaslıq məktəbinin yaradılması; Azərbaycan dilinin, ədəbi dil tarixinin, dialektlərinin tədqiqi, izahlı, tərcümə, terminoloji lüğətlərin tərtibi, dialektoloji atlas və s. -nin hazırlanması.

Lakin bütün bu nailiyyətlərlə yanaşı, Strategiyada müasir dövrün tələblərindən irəli gələrək ictimai və humanitar elmlər qarşısında duran vəzifələr, bu sahənin perspektiv strateji inkişaf istiqamətləri də müəyyənləşdirilmişdir. Belə ki, Milli Strategiyanın 4-cü və 5-ci bəndlərində «xalqımıza məxsus milli-mənəvi dəyərlərlə bağlı istiqamətlərdə bir çox məsələləri yenidən Azərbaycançılıq məfkurəsi mövqeyindən araşdırılması; milli-mənəvi dəyərlərin, Azərbaycan mədəniyyəti və tarixinin obyektiv, konseptual və kompleks şəkildə araşdırılması; ictimai və humanitar elm sahələrində keçmiş sovet metodologiyası ənənələrinin milli maraqlara uyğun yanaşmalarla, o cümlədən azərbaycançılıq fəlsəfəsi əsasında formalaşdırılmış yeni prinsiplərlə əvəzlənməsi; humanitar və ictimai elm sahələrinin birgə fəaliyyəti sayəsində azərbaycançılıq məfkurəsinin konseptual elmi əsaslarının işlənilməsi; sosial, siyasi, iqtisadi, mənəvi və ekoloji risklərin öyrənilməsi və qarşısının alınması üçün elmi əsasların hazırlanması; mədəni və mənəvi-əxlaqi aşınmaların proqnozlaşdırılması və qarşısının alınması üzrə elmi əsasların işlənib hazırlanması» əsas məqsəd və vəzifələr olaraq göstərilmiş, 7-ci bənddə isə «Azərbaycanın tarixini, arxeologiyasını, mədəniyyətini, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini, ictimai-fəlsəfi, sosial-hüquqi, ədəbi-bədii fikir tarixini, dilini, etnoqrafiyasını, folklorunu öyrənən ictimai və humanitar elm sahələrinin inkişafının təmin edilməsi» dövlətin elmi-texnoloji və innovasiya siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir

Həmçinin, Strategiyada «milli-mənəvi dəyərlərin qorunmasına, milli tariximizin, mədəniyyətimizin və dilimizin obyektiv və əsaslı konseptual tədqiqinə

yönəldilmiş humanitar və ictimai elmlər sahəsində araşdırmalar ölkənin sosial-iqtisadi və mədəni-mənəvi inkişafına uyğun prioritet elmi istiqamət olaraq qəbul edilmişdir.

Bütün bunlar, Azərbaycan Milli Elmlər Akademiyasının ictimai və humanitar elm sahələri üzrə fəaliyyət göstərən rəsmi strukturlar qarşısında təxirəsalınmaz tələblər irəli sürür, Azərbaycan alimləri qarşısında mahiyyətcə yeni və məsul vəzifələr qoyur.

Biz inanır və ümid edirik ki, humanitar və ijtimai elmlər də daxil olmaqla Azərbaycnın mövjud elmi potensialı bir tərəfdən dövlətin günü gündən elmə artan diqqət və qayğısı, digər tərəfdən də özünün daxili intellektual səfərbərliyi sayəsində yeni dövrün tələbləri baxımından daha mütəşəkkil konsolidasiya olunajaq, respublikanın sosial-iqtisadi və mədəni-mənəvi inkişafında daha yaxından iştirak edəcəkdir.